

*Əlirza HƏSRƏT*

## SƏNİ YARALI SEVDİM

Gözdən, könüldən uzaq
Düşüb aralı, sevdim.
Oxlanıb kirpiyinlə,
Səni yaralı sevdim.

Lalələr qan içində,
Ha alış, yan içində.
Dağda duman içində
İtən maralı sevdim.

Heykəl qurub xəzəldən,
Eşq umdum hər gözəldən.
Bu dünyanı əzəldən
Ağlı-qaralı sevdim.

## GÖRƏK KİM GÖZƏL AYRILIR

Gün keçdi dağın dalına,
Dağ sevindi bu halına.
Gəl ayrılıq vağzalına,
Görək kim gözəl ayrılır?!

Çiçəklədi tökdüyün qan,
Ruha tamarzıdır bu can.
Nəğmə öpür dodağımdan,
Könlümdən qəzəl ayrılır.

Sil ömrün-günün pasını,
Saxlayaq sevda yasını.
Payız açıb yaxasını.
Budaqdan xəzəl ayrılır.



## DÜNYANIN DÜZƏLMƏK TƏHLÜKƏSİ VAR

Şimşək işığına düşdü gözlərim,
Buludlar dərdimə məlhəm aradı.
Sabahı ürəklə qarşılamağa,-
Ümidim sevdiyim adamlaradı.

Kölgəm də haçandır düşüb dalımca,
İstidən çəkinmir, soyuqdan qaçmır.
Yaxşı ki, dilənmir kölgəm adamtək,
Yaxşı ki, heç kimə əlini açmır.

Gəlmir xoşunuza divanəliyim,
Ruhumu çarmıxa çəkən adamlar!
Atın özünüzü Yer kürəsindən,-
Dünyanın düzəlmək təhlükəsi var!.

## KÖNÜL HEYRAN OLUB UCALIQLARA

Quşlar dimdiyini şehə batırıb,
İbadət eləyir yarpağın üstə.
Torpağın altından çıxan nə varsa,
Tapır qiymətini torpağın üstə.

Hər dağ bir təpənin əlindən tutub,
Könül heyran olub ucalıqlara.
Sən də ayağını Yerə möhkəm bas,
Özünə dağlar tək ucalıq ara.

Vətən torpağına bərəkət verir,
Bu zəhmət çiçəyi alın tərimiz.
Hər doğan Günəşin şəfəqlərində,-
Gülüb aynalanır ümidlərimiz.

## AZADLIQ İLAHƏSİ

Bu ulu məhəbbətin sehrinə bax,ilahi,
Könlümüzü bayrağa bağlamağı bacardıq.
Bu yurda əl uzadan düşmənlərin gözünü,-
Elə bu bayraqla da dağlamağı bacardıq.

Kür-Araz qol götürüb süzür Muğan düzündə,
Nə xoşdur aynalanmaq Xəzərin göy gözündə.
Hər an türklüyümüzlə öyünüb Yer üzündə,
Bu bayrağın eşqiylə çağlamağı bacardıq.

Külək sərhəd telində çalır "Vətən marşı"nı,
Gəlin bayraq tutmağa sinəmdəki qurşunu.
Yadlar görməsin deyə, gözümüzün yaşını,
Ürəyin gözüylə də ağlamağı bacardıq.

Duruşda Savalandı, əzəmətdə Şah dağı,
Anlamaz bu hikməti cahil insan, bəd yağı.

Məhəbbət çeşməsindən su içib pərvazlanan,
Azadlıq İlahəsi bu müqəddəs bayrağı,
Ən uca zirvələrdə saxlamağı bacardıq.

## BİZDƏ DAĞLAR DUMANDI...

Şair dostum, bizdə dağlar dumandı,
Dağ dumansız, duman dağsız yamandı.
Bir ah çəkdim qəlb alışdı, dil yandı,
Bu ocaqdan qalan külüm mübarək.

Gözlərini sinəmdəki dağ çəkdi,
Bu dumanda göz çəkməkdə dağ təkdi.
Bir qız gördüm, dodaqları çiçəkdi,
Dərən də yox, deyəm, gülün mübarək.

Hər göz yaşı bir ayrılıq duası,
Qan da yumaz bağrımdakı bu pası.
Eşq dilində son şərqidir Qu yası,-
Belə sevda, belə ölüm mübarək!

## SOLĞUN ÇİÇƏKLƏRİN SİMFONİYASI

Çılpaq ağacların dodağı qaçır,
Payız götürübdür səni qızlığa.
Elə gözəl getdin, gözəl ayrıldın,
Vuruldum səndəki vəfasızlığa.

Sarı yarpaqları yelpik eləyib
Döyür pəncərəmi payız rüzgarı.
Uzaqda baş-başa verən zirvələr
Dağın ətəyinə ötürür qarı.

Durna qatarına güllə atmayın,
Ölüm sevdasıdır hər quşun yası.
Divanə ruhumu dilə gətirib,
Solğun çiçəklərin simfoniyası.

## SƏNƏ ÇİÇƏK DEDİM...

Tumurcuq gözləri gülür baharın,
Bənövşə ah çəkir kolun içində.
Diksinib boylanır ayaq izlərim,
Arxamca uzanan yolun içində.

Şəklimiz çəkilib quzey qarına,
Bu sevda dağın da gələr karına.
Ovcunu tutmusan göz yaşlarına,
Hələ oynayırsan selin içində.

Gəl, qucaq qollarım çəpərin olsun,
Çəpərdən keçməyə təpərin olsun.
Sənə çiçək dedim, xəbərin olsun,
Bu qədər çəmənin, gülün içində.